# AZƏRBAYCAN SÜLH KORPUSU

## Mətbuat üçün Açıqlama

# Sülh Korpusunun 9-cu Könüllülər qrupu Azərbaycanda Xidmətlərinə Başlayır

8 dekabr 2011

44 yeni Sülh Korpusu könüllüləri 8 dekabrda Bakının Grand Europe Hotel mehmanxanasında andiçmə mərasimindən sonra iki illik təyinatlarına başlayacaqlar. Yeni könüllülər Azərbaycanın 24 rayonunda işləyəcək və öz bilik, bacarıq və təcrübələrini Azərbaycan icmalarının və təşkilatlarının inkişafı üçün tətbiq edəcəklər.

Sülh Korpusu ABŞ-ın hökümətinin təşkilatıdır. Təşkilat Prezident Con Kenedinin sərancamına əsasən 1961-ci ildə təsis olunub. İnkişafda olan ölkələrə öz bacarıqları və biliklərini artırmaqda kömək etməklə və ixtisaslı Amerikalıları göndərməklə, Sülh Korpusu sülh və dostluq quraraq mədəniyyət mübadilə proqramları ilə ölkələr arasında qarşılıqlı anlaşmanın dərinləşdirilməsinə təkan verir. Bu vaxtadək, Sülh Korpusundan təxminən 200,000 könüllü dünyanın 139 ölkəsində fəaliyyət göstərib.

Könüllülərin and içmələrini qəbul edən ABŞ Səfiri Metyu Brayza könüllüləri Amerika dəyərlərini, inam və təcrübələrini bölüşməyə dəvət etdi. Könüllülərə Azərbaycanın zəngin mədəniyyətini xatırladan cənab Brayza bildirib ki, Sülh Korpusunun təcrübəsi həm onların, həm də çoxsaylı azərbaycanlıların həyatlarını daha zəngin edəcək. Cənab Brayza və Azərbaycanda Sülh Korpusu Proqramının Direktoru Meysi Vitinqtonla yanaşı, Təhsil nazirinin müavini Qulu Novruzov, Gənclər və İdman nazirinin müavini İntiqam Babayev və İqtisadi İnkişaf nazirliyinin nümayəndəsi də tədbirə qatılıblar.

Sülh Korpusu Azərbaycanda 2003-cü ildə fəaliyyətə başlamış və hal-hazırda 3 proqram üzarində çalışır: 1) icmanın iqtisadi inkişafı, 2) inglisi dilinin xarici dil kimi tədrisi, 3) gənclərin inkişafı. Ölkəyə ilk könüllülər gələndən etibarən 389 könüllü ölkədə xidmət göstərmişdir.

Sülh Korpusunun könüllülərinin 9-cu qrupu Azərbaycana 2011-ci ilin sentyabrında gəlib. Onlardan 11-i icmanın iqtisadi inkişafı sahəsində; 10 nəfəri gənclərin inkişafı sahəsində və 23 nəfər inglisis dilinin tədrisi ilə məşğul olacaqlar. Onlar Saray, Xırdalan, Masazır və Ceyranbatan icmalarında azərbaycanlı ailələrlə yaşayaraq 10 həftəlik xidmətdən öncə təlim proqramında iştirak edirlər.

Sülh Korpusunun Proqram Direktoru Meysi Vitinq çıxış edərək bütün tərəfdaşlara, o cümlədən Sumqayıt və Abşeron icra hakimiyyətlərinə, dörd yerli icmanın nümayəndələrinə, Sumqayıt şəhər bələdiyyəsinə, Sumqayıt və Abşeron təhsil şöbələrinin rəhbərlərinə, çoxsaylı təşkilatlara, könüllərin qaldığı ailələrə və məktəb direktorlarına Sülh Korpusunun yeni könüllülərinin hazırlanmasında və Azərbaycandakı xidmət üçün yetişdirilməsində iştirakına və dəstəyinə görə öz təşəkkürünü bildirib.

**Mərasimin müddəti: 12:00 – 14:00-adək olacaq.**

AZ 1078, 2c Hasan Aliyev Street, Baku, Azerbaijan
Tel: (99 412) 596 17 20; Fax: (99 412) 596 17 24